«Universal-onlayn» xidməti əsasında şagird şəxsiyyətinin inkişafı layihəsinin idarə edilməsi*

Müəllif **Valeriy Kiriçuk**
Ukrayna Milli Pedaqoji Elmlər Akademiyası Təhsil İnstitutunun Psixologiya kafedrasının dosenti. E-mail: kyrichuk@ukr.net
https://orcid.org/0000-0003-0296-421X

Annotasiya Tədris prosesinin idarə olunması xidməti olan «Universal-onlayn» Valeriy Aleksandroviç Kiriçukun pedaqoji görüşlərinin məqsəd, vəzifə və prinsiplərini əhatə edən sistemdir. Məqalədə kompleks xarakterizə olunan bu sistem şagird şəxsiyyətinin hərtərəfli inkişafına yönəlib və pedaqogika, psixologiya, tibbi məlumatların emalı işinin təşkili sahələrində nəticələrin birləşməsindən ibarətdir. Bu sistem müəyyən şərtlər daxilində «Adaptiv təhsil sistemi» də adlandırıla bilər. Sistemin konsepsiyasının mahiyyəti bundan ibarətdir ki, hər bir uşaq özünəməxsus şəkildə inkişaf edir, ona görə də fərdiləşmiş təlim və tərbiyəyə ehtiyac duyulur. Sistemdə təhsilalanların hər birinin obyektiv təhsil tələbatlarını ödəmək üçün onların təhsil ehtiyacları müəyyənləşdirilir. Şagird sistemin prinsiplərinə əsasən təhsil aldığı müddətdə hərtərəfli tibbi-psixoloji-pedaqoji diaqnostika edilir. Bu ehtiyacların faktiki təhlilinin aparılması və təhsil tsiklində şagirdin şəxsi inkişafını təmin edən fərdi tapşırıqlar müəyyənləşdirilir. Müəyyən vəzifələri yerinə yetirmək və müəllimlərin işini təşkil etmək üçün layihə metodu tətbiq edilir. Məqalədə göstərilir ki, «Universal-onlayn» ümumtəhsil məktəblərində kollektiv təlimdə fərdi təhsilin həyata keçirilməsinə imkan yaradan inteqrasiya edilmiş bir vasitədir. Bu sistem mövcud maliyyə, kadr, təşkilati məhdudiyyətlər çərçivəsində zamana qənaət etməklə müəllimlərin işini asanlaşdırır.

Açar sözlər Elmi-pedaqoji metodiki layihə, Universal-onlayn, şagird şəxsiyyəti, şagirdin zehni inkişafı.

http://dx.doi.org/10.29228/edu.18

Məqaləyə istinad: Kiriçuk V. (2019) *«Universal-onlayn» xidməti əsasında şagird şəxsiyyətinin inkişafı layihəsinin idarə edilməsi.* «Azərbaycan məktəbi». № 2 (687), səh. 165–184.

* Məqalə rus dilindən tərcümə olunub. Mənbə: Киричук В. (2018) *Управление проектами личностного развития учеников на облачном сервисе «Универсал-онлайн».* «Азербайджанская школа». № 3 (684), стр. 119–138.

Management of projects of personal development of the disciples on the cloud service «Universal-online»

Author **Valery Kirichuk**
Associate Professor at the Department of Psychology of Management of the Institute of Educational Management, National Academy of Pedagogical Sciences of Ukraine. E-mail: kyrichuk@ukr.net
https://orcid.org/0000-0003-0296-421X

Abstract The «Universal-online» educational management service is a cloud-based application that implements the principles of a holistic pedagogical system of Valeriy Kyrchuk.This system is aimed at the comprehensive development of the child's identity and represents a combination of the latest knowledge in the areas of pedagogy, psychology, medicine, data processing and labor organization. With certain reservations, it can be attributed to the so-called «systems of adaptive education». The essence of the concept of the system — each child develops in a unique way, and therefore needs individualized education and training. The system provides for the need for periodic comprehensive medical-psychological and pedagogical diagnostics of students to identify the objective educational needs of each, carrying out a factor analysis of these needs and identifying the individual tasks of personal development for the educational cycle, the application of the project method of organizing the work of teachers (as the most purposeful) for the fulfillment of the specified tasks, defines the sequence of actions of teachers to create an individualized personality Educational educational content. The «Universal-online» service is an integrated toolkit that makes it possible to introduce individualized education in the most ordinary general educational institutions with a collective learning method. Under the existing financial, personnel and organizational constraints of these institutions. Save time and ease the work of educators.

Keywords Scientific-pedagogical methodical project, universal online, student identity, mental development of the student.

http://dx.doi.org/10.29228/edu.18

To cite this article: Kirichuk V. (2019) *Management of projects of personal development of the disciples on the cloud service «Universal-online».* Azerbaijan Journal of Educational Studies. Vol. 687, Issue II, pp. 165–184.

Aktuallıq

İdeyaların inkişafının və sosial-pedaqoji layihələrin praktiki analizi təhsildə bu gün mövcud olan, narahatlıq yaradan bir sıra tendensiyaları və ziddiyyətləri müəyyənləşdirməyə imkan verir. Bunların ağırlaşmaları da tərbiyə prosesinə mənfi təsir edən sosial risk kimi qiymətləndirilir. Bunlar uşaqlıq dövrünün infrastrukturunun modernləşdirilməsi məsələlərinin gerçəkləşməsinə, uşaqların sosiallaşmasına, mənəvi inkişafına, vətəndaş kimi formalaşmasına mane olur.

Bu gün «Universal-onlayn»ın tətbiqi təhsil sistemində ən çox narahatlıq yaradan iki tendensiyanı meydana çıxarır: «subyektin layihələndirilməsi» və «layihə fəaliyyətinin formalaşdırılması».

Praktikada və elmi-metodik işlərdə layihələndirmə mövzusu qeyri-müəyyən olarsa və ya tərbiyə prosesinin subyekti ilə əvəz edilərsə, daha dəqiq desək, bu proses şəxsiyyətin formalaşdırılması prosesində həyata keçirilərsə, qeyd etdiyimiz narahatlığın baş verməsi labüd olar.

Uşağın dünyaya öz yaradıcı modelini, şəxsi idealını, özünü inkişaf etdirmə, özünütərbiyə motivini gətirməsinə şərait yaratmaq əvəzinə, bir uşağın mənəvi inkişafını qiymətləndirmək üçün öhdəlik xüsusiyyətləri tələb edilərsə, «Məzun modeli» və ya «Məzun portreti» adlandırdığımız anlayışlar şagirdlərin inkişafında mənfi rol oynayır. Bu zaman uşağı sanki «yuxarıdan aşağı» yuvarlayırıq.

Pedaqoji aksiomlar şəxsiyyət formalaşdırılmasında kifayət etmir. Əgər sosial-pedaqoji iş prosesində yalnız humanist, demokratik dəyərlərə, şəxsiyyətyönlü, subyektiv yanaşmalara əsaslanaraq, təhsilalan ölkə Konstitusiyasında təsbit olunmuş ümumbəşəri və milli dəyərlərə sadiq vətəndaş kimi yetişə bilər.

Layihələndirmənin predmeti tərbiyəvi proses ola bilər. Tərbiyə prosesinin subyektindən başqa hər şey: tərbiyə sistemi və ya onun reallaşdırılması modeli, tərbiyə prosesi subyektlərinin birgə fəaliyyət mexanizmləri və texnologiyaları, təhsil sisteminin fərdi komponentləri layihələndirmənin mövzusu sayılır.

Ümumtəhsil məktəblərində humanist pedaqogika, keyfiyyətli tibbi dəstək və psixoloji dəstəyin əməkdaşlıq rejimində tətbiqi şəxsiyyəti inkişaf etdirən modelə keçid deməkdir. Hansı ki, şagird bu modeldə öz istedadlılıq və fərdilik xüsusiyyətləri ilə yaradıcılıq bacarığını meydana çıxara bilir.

Şəxsiyyəti inkişaf etdirən yanaşma innovativ-metodik və tədris texnologiyalarının yaradılmasını, tətbiq edilməsini, sağlamlığının qorunub saxlanması şərti ilə uşağın şəxsiyyətinin ahəngdar şəkildə inkişafını həyata keçirmək üçün hər bir təhsilalanın mənəvi cəhətdən formalaşmasını təmin edir.

Ümumtəhsil müəssisəsinin təlim-tərbiyə prosesinin bu sistemi Ukrayna Milli Pedaqoji Elmlər Akademiyası (MPEA) İstedadlı Uşaqlarla İş İnstititunun tədqiqatçıları, Ukrayna MPEA Təhsilin İdarəedilməsi İnstitutunun psixoloji idarəetmə kafedrasının, Pediatriya və Doğum İnstitutunun Ana və uşaq sağlamlığının təşkili elmi problemləri şöbəsinin alimləri tərəfindən 2012-ci ildə daha da təkmilləşdirilmişdir.

Ümumtəhsil məktəb şagirdlərinin şəxsi inkişaf layihələrinin idarə edilməsinin bütöv sistemi olan «Universal-onlayn» layihəsi Ukraynada iki eksperiment dövrünü: 2001-2007, 2007-2012-ci illəri əhatə etməklə, ölkənin 20 bölgəsində yerləşən yüzdən çox ümumtəhsil müəssisəsində tətbiq olunmuşdur.

Təlim-tərbiyə prosesinin şəxsiyyəti inkişaf etdirən məzmun əsasında layihələndirilməsi

«Universal-onlayn» sisteminin psixoloji, tibbi və pedaqoji texnologiyalarının yaradılması və sınaqdan keçirilməsində Ukraynanın, ən çox Volın, Dnepropetrovsk, Nikolaev, Donetsk, Lugansk bölgələrinin eksperimental ümumi təhsil müəssisələrinin müəllim kollektivləri tərəfindən böyük köməklik göstərilmişdir. Bu bölgələrin müəllim heyəti bu təcrübi tədqiqat fəaliyyətini 1998-2015-ci illərdə həyata keçirmişdir. Təcrübədə olduqları müddətdə təhsil müəssisələri vahid bir təhsil sisteminin səkkiz texnoloji modulunu sınaqdan keçirdi və onun monitorinqini apardı. Monitorinq statistikası göstərir ki, şagirdlərin şəxsi inkişafında müsbət nəticələr əldə edilib, eyni zamanda müəllimlərin peşəkarlıq səviyyələri xeyli yaxşılaşmışdır.

Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının mütəxəssislərinin, Akademiyanın rəyasət heyətinin müsbət rəylərini alan «Universal-onlayn» sistemi Ukrayna Elm və Təhsil Nazirliyinin 20.12.2017-ci il tarixli 3 nömrəli müvafiq sərəncamı ilə fəaliyyət göstərir.

Bu təhsil sisteminin tətbiqinin başlıca məqsədi təhsil prosesi iştirakçılarının qarşılıqlı münasibətlər sistemində şagirdlərin fərdi inkişafı istiqamətində sosial baxımdan konstruktiv dəyişiklikləri tətbiq etməkdir.

Şagird şəxsiyyətinin inkişafı layihəsinin idarə olunmasının əsas prinsipləri

«Universal-onlayn» xidmətində şagirdin inkişafı üçün layihələrin idarə edilməsi üzrə təhsil sisteminin yaradılması zamanı qeyd etdiyimiz prinsiplər əsas götürülür:

Təhsil müəssisəsinin sistematik korreksiyaedici, profilaktik, inkişaf vəzifələri və fərdi inkişaf məsələləri prinsipi şagirdin onun deviant davranışının ani vəziyyətinə deyil, şəxsiyyətinin inkişafı ilə bağlı ən yaxın (sonuncu) proqnozuna əsaslanır. Vaxtında görülən profilaktik tədbirlər şagirdin şəxsi inkişafında və davranışında lazımsız ağırlaşmaların qarşısını almağa imkan verəcək. Buna görə də, deyə bilərik ki, gələcəkdə bu sistemdə tammiqyaslı xüsusi korreksiya tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Hər hansı bir proqram və ya tərbiyəolunanların inkişafı layihəsi onların yalnız davranışındakı kənaraçıxmaların korreksiyasına yönəlməklə kifayətlənməməli, eyni zamanda uşağın şəxsiyyətinin harmonik inkişafının potensial imkanlarının daha dolğun həyata keçirilməsi üçün də əlverişli şərait yaradılmalıdır.

Diaqnostika, inkişaf və korreksiya birliyi prinsipi pedaqoji prosesin bütövlüyünü təmin edir. Hər hansı subyekt haqqında ilkin məlumatları bilmədən effektiv və geniş

miqyaslı korreksiya-inkişaf işlərini aparmaq mümkün deyil. Şagird haqqında obyektiv məlumatlar, onun inkişaf xüsusiyyətləri, yaşıdları, böyüklər ilə münasibətləri olmasa, davranışdakı kənaraçıxmaları düzəltmək və potensial imkanlarını inkişaf etdirmək üçün lazımi metodları tapmaq çətindir. İnkişaf-korreksiyaedici pedaqoji proses dəyişikliklərin olub-olmamasını, korreksiyaetmənin inkişafının və sürətinin dinamikasının yoxlanılmasını; diaqnostik prosedurların aparılmasını, düzəliş və inkişaf fəaliyyətlərinin bütün mərhələlərinin reallaşdırılmasını nəzarətdə saxlayır.

Şagirdlərin şəxsi keyfiyyətlərinin fərdiliyini və qüsurların strukturunu nəzərə almaqla korreksiyaedici – inkişafetdirici və tərbiyəvi proseslərin layihə planlaması prinsipi təlim vəzifələrinin icrası, korreksiyaedici-inkişafetdirici taktiki məsələlərin həlli ilə sıx bağlıdır.

Potensial imkanların inkişafını və korreksiyasını özündə maksimum səviyyədə ehtiva edən funksiyalar əsasında bütün təlim və korreksiya edən tərbiyəvi tədbirlərin təşkili və həyata keçirilməsi prinsipi korreksiya-tərbiyə proseslərində planlaşdırma və onun həyata keçirilməsini, potensial imkanların inkişafının korreksiyaetmə funksiyasını maksimum dərəcədə özündə ehtiva etməsinə əsaslanır. Korreksiya və inkişafın fəal prinsipi təlim-tərbiyə prosesinin təşkili və keçirilməsi taktikasını və qarşıya qoyulmuş məqsədlərin reallaşdırılması üsullarını müəyyən edir. Vurğulanır ki, onların əldə olunmasında əsas məqsəd şagird və müəllimlərin fəallığının təmini, onların fəal təzahürü üçün zəruri şəraitin yaradılması, korreksiya-inkişaf işlərinin sürətidir. Şagirdlərin sistemdə aparıcı fəaliyyəti onların ətraf mühitə və sosial mühit elementlərinə münasibətləri ilə müəyyən olunur. Həmin elementlər müəyyən anlarda inkişafın mənbəyinə çevrilərək, «uşaq – həmyaşıd», «uşaq – böyüklər» münasibətlər sistemində müəyyən bir yaş dövrü üçün tipik ünsiyyət formalarını müəyyənləşdirir.

Proqramın müxtəlif bölmələrində mövzular üzrə təhsil materiallarını qruplaşdırma prinsipinə təhsil müddətinin bütün dövrlərində rast gəlinir. Fəaliyyət və bacarıqların bütün formalarında korreksiya və formalaşdırma aparılır, psixoloji inkişafın pozulmaları düzəldilir.

İslah-tərbiyə işinə fəal yanaşmanın həyata keçirilməsi prinsipi, yəni bütün növ tərbiyə işinin — əsas fəaliyyət qruplarının məcrasında tədris və korreksiya işlərinin aparılması prinsipi. Korreksiyaedici-pedaqoji işin planlaşdırılması və təşkili zamanı şagirdlərin əksəriyyətinin çətinlik çəkdiyi tapşırıqlarda ən adekvat məqsəd və məsələlər elə seçilməlidir ki, onların həlli inkişaf istiqamətinə yönəlsin. Fəaliyyət yanaşmasının prinsipini korreksiya və inkişaf prosesinin qurulmasının metodoloji əsası təşkil edir.

Korreksiya – pedaqoji fəaliyyətin metod və üsullarının kompleks istifadəsi prinsipi. Korreksiya – inkişaf pedaqogikasında və psixologiyasında şəxsin fərdi psixoloji xüsusiyyətlərinin, sosial vəziyyətinin, pedaqoji prosesin maddi-texniki və tədris-metodiki təminat səviyyəsinin və müəllimlərin, praktik psixoloqların, tərbiyəçilərin buna hazırlığını nəzərə alan müəyyən metod və vasitələrin və texnikanın birləşməsi tələb olunur. Burada həm müəyyən məntiq, həm də pedaqoji metodların və korreksiya üsullarının tətbiqinin ardıcıllığı, şagirdin şüuruna, onun emosiya və hisslərinə

təsirin müəyyən pilləli olması, onun həmyaşıdları və böyüklərlə fəal fərdi və ya qrup fəaliyyətinə cəlb edilməsi diqqətdə saxlanılır.

Kompetensial yanaşma prinsipi. İdrak fəaliyyətinin inkişafını sinif rəhbərləri, fənn müəllimləri, tərbiyəçilər, defektoloqlar həyata keçirirlər. Nitqin inkişafını və korreksiyasını loqoped-müəllimlər reallaşdırır. Mövcud pozuntuların korreksiyasını defektoloq-müəllimlər təmin edir (surdo-, tiflo-, oliqofrenopedaqoqlar). Praktik psixoloq uşaqların psixoloji sağlamlığını, uşağın şəxsiyyətinin korreksiyasını və inkişafını təmin edir. Bu zaman sinif rəhbərləri, tərbiyəçilər birgə fəaliyyət göstərir, rejimdən irəli gələn vəzifələri həyata keçirirlər.

«Universal-onlayn»da şagirdlərin boş vaxtlarındakı özfəaliyyətləri planlaşdırılır, bu da pedaqoqların yaratdığı fənn-inteqrativ və tədris-idrak mühitinin hesabına pedaqoji yönü ilə diqqəti cəlb edir. Bu, hər bir şagirdin maraqlarına cavab verən geniş fəaliyyət ilə təmin olunur, onların bir-biri ilə əməkdaşlığı və fərdi fəaliyyətlərinə zəmin yaradılır. Fiziki tərbiyə ilə birmənalı olaraq, fiziki tərbiyə müəllimləri məşğul olur. Musiqi və bədii fəaliyyətin inkişafı musiqi müəllimi tərəfindən həyata keçirilir.

Təhsil proqramlarının mənimsənilməsi prosesində uşağın psixofiziki vəziyyətinin uçotu prinsipi. Ümumtəhsil məktəblərində təhsil prosesi struktur bölmələrin: administrasiyanın, fənn müəllimlərinin, sinif rəhbərlərinin, tərbiyəçilərin, tibb işçilərinin, şagird özünütəhsil qurumunun və valideynlərin qarşılıqlı fəaliyyət modeli əsasında həyata keçirilməlidir. Bu isə öz növbəsində tibbi və pedaqoji tədbirlərin ardıcıllığını sistemləşdirməyə, şagirdin pedaqoji yüklənməsinin nisbi bərabərliyini təmin etməyə imkan verəcək.

Təhsil prosesinin bütün iştirakçılarının fəaliyyətində qarşılıqlı əlaqə prinsipi. Bu, bütün təlim-tərbiyə prosesi iştirakçılarının korreksiya və inkişaf tədbirlərinin hazırlanması və həyata keçirilməsində çox mühüm prinsipdir. Buna görə də, hər tədris ilinin, hər semestrin sonunda hərtərəfli tibbi, psixoloji, pedaqoji diaqnostika aparılması məsləhət görülür. Bunun əsasında sinif kollektivləri, eləcə də ayrı-ayrı qruplar və həmçinin konkret şagirdlər üçün şəxsiyyətin fərdi inkişafını reallaşdıra biləcək layihələr müəyyənləşdirilir.

Sosial adaptasiya üçün vacib olan şəxsi keyfiyyətlərin prioritet formalaşması prinsipi. Bu prinsipə əsasən təhsil prosesi elə qurulur ki, şagirdlərdə fəal həyat mövqeyinə, nikbinliyinə, ünsiyyət qabiliyyətinə, öz bilik və bacarığına inam formalaşsın.

Yaxın ətrafla səmərəli münasibətlərin yaradılması prinsipi. Şagird sosial mühitdən kənarda inkişaf edə bilməz. O, sosial mühitin aktiv komponenti olub bütöv sosial münasibətlər sisteminin tərkib hissəsidir. Buna görə də, onun davranışındakı kənarlaşmalar – deviantlıq yalnız onun psixo-fizioloji vəziyyətinin deyil, həm də valideynlərinin, yaxın dostlarının və həmyaşıdlarının, pedaqoqların ona fəal təsirinin nəticəsidir. Yəni şagirdin davranışındakı çətinliklər — onun yaxın ətraf mühitlə münasibətlərinin, onların birgə fəaliyyətinin və ünsiyyətinin xüsusiyyətlərinin, sosiumla şəxsiyyətlərarası əlaqələrin xarakterinin nəticəsidir. Nəticə etibarilə, şagirdin şəxsiyyətini araşdırmadan, tədqiqat nəticələrinin sistematik təhlilinə varmadan, təhsil prosesinin məzmununu tərtib etmədən şagirdin fərdi inkişafının

reallaşdırılması istiqamətində məqsədyönlü iş aparmaq mümkün olmayacaq. «Universal-onlayn» nəzərdə tutur ki, humanist pedaqogika, əməkdaşlıq və ortaqlıq prinsiplərinin həyata keçirilməsi kontekstində tədris prosesinin təşkili üçün tədris və intizam modelindən fərdi inkişaf modelinə keçid təmin olunsun. Bu da şəxsiyyətyönlü tədrisin təmin olunmasında əsas amillərdən hesab edilə bilər. Bu, yeni təhsil paradiqmasının, məntiqi təfəkkürün formalaşmasına yeni yanaşma prizmasının, tədrisin innovativ texnologiyalarının axtarılmasını, nəhayət XXI əsrin tələblərinə uyğun məktəbin, şəxsiyyətin özünüreallaşdırması məktəbinin, multikultural təhsil verən məktəblərin yaradılmasını tələb edir. Yalnız şəxsiyyətin inkişafını stimullaşdıran, ona yol açan təhsil modeli qurmaqla belə məktəbləri yaratmaq mümkündür.

Əsas məzmun

Ümumtəhsil məktəbi şagirdlərinin şəxsi inkişaf layihələrinin idarə edilməsi üzrə innovativ təhsil sisteminin yaradılması prosesində tədrisin şəxsiyyətyönlü məzmununun layihələndirilməsi məqsədi ilə elektron diaqnostik-layihələndirici servis ərsəyə gətirmək zərurəti yaranmışdır.

«Universal-online» xidməti təhsil prosesinin bütün iştirakçılarının qarşılıqlı əlaqəsində üç alt sistemdən ibarət çoxsəviyyəli iyerarxik təhsil sistemini təşkil edən doqquz texnoloji moduldan ibarətdir:

1. Diaqnostik-analitik altsistem (hədəflərin müəyyənləşdirilməsi):

- təlim-tərbiyə prosesi iştirakçılarının diaqnostikası;
- şagirdlərin fərdi inkişafının təhlili və proqnozlaşdırılması;
- təhsil müəssisəsinin və şagirdlərin fərdi inkişafına dair tapşırıqların hazırlanması.
- Proqram-planlaşdırma alt sistemi (layihələndirmə).
- tədris və təlim-tərbiyə proqramının proqramlaşdırılması (fənnyönlü məzmunla);
- layihələrin süjet xəttinin modelləşdirilməsi (problem-hədəfli məzmunla);
- təhsil prosesi iştirakçılarının işinin planlaşdırılması (şəxsiyyətyönlü məzmunla).

2. Korreksiya və inkişaf altsistemi (prosessual):

- tədris və təlim-tərbiyə ssenarilərinin yaradılması (şəxsi inkişaf məzmunlu);
- təhsil məzmununun reallaşdırılması (şəxsiyyətyönlü və şəxsi inkişaf məzmunlu), pedaqoji işçilərin işlərinin səmərəliliyinin müəyyənləşdirilməsi;
- rayon, region, ölkə üzrə şagirdlərin, qrupların, sinif kollektivlərinin şəxsi inkişafının, tədris müəssisələrinin irəliləyişinin monitorinqi.

«Universal onlayn» diaqnostik metodlar

I Blok. Şəxsiyyətin sosial və kommunikativ inkişafı

1.1. Sosiametriya metodikası.

Müəllif: A.V.Kiriçuk (şagird sorğusu) icra müddəti: 10-15 dəqiqə– 4 sual. 55 kriteriyalarla nəticələr + proqnozlaşdırma.

Kriteriyalar (sinfin inteqrasiya səviyyəsi, sinif infrastrukturu: aktif, passiv, təcridetmə, imtina, risklər qrupu, liderlər, subliderlər, liderlərin qarşılıqlı fəaliyyəti, subliderlərin qarşılıqlı fəaliyyəti, rəsmi şagird statusu, qeyri-rəsmi şagird statusu və s.).

1.2. «Şəxsiyyətin dəyərləndirmə istiqamətləri» metodikası (Müəllif: V.A.Kiriçuk). Uşaqlara 9 sualı cavablandırmaq üçün, 15-20 dəqiqə vaxt verilir. Nəticələr 9 kriteriya əsasında hazırlanır (məsələn, uşaqların dəyər istiqamətləri: fiziki yaxşılaşdırma, bədii-vizual, mövzu-transformasiya, öyrədici-idrak, sosial-kommunikativ və s.).

1.3. «Həyat aktivliyi» metodikası. Müəllif: A.V.Kiriçuk, V.A.Kiriçuk.

Sinif rəhbəri hər şagird üçün 15 dəqiqə ərzində 9 sualla sorğu verir (ekspert qiymətləndirmə)

Nəticələr 9 kriteriyaya əsasən işlənir. Məsələn, uşağın dəyər istiqamətləri: bayram-oyun fəaliyyəti, fiziki cəhətdən yaxşılaşdırma, mövzu-transformasiya, sosial-kommunikativ və s.

II Blok. Şəxsiyyətin Psixoloji İnkişafı

2.1. Şəxsiyyətin inkişaf qüsurlarının diaqnostikası metodikası. Şəxsiyyətin psixoloji inkişafının diaqnostikasını həyata keçirən bu metodikanın müəllifi Zinaida Karpenkodur. 90 sualı cavablandırmaq üçün 15-20 dəqiqə vaxt verilir. Təhlilin nəticələri 9 kriteriya üzrə hazırlanır (məsələn, narahatlıq, aqressivlik, inamsızlıq, etibarsızlıq və s.)

III Blok. Ruhi inkişaf

3.1. Şəxsiyyətin dəyər prioritetləri metodikası. Müəllif: Svetlana Tişenko. 5 sualla 9 blok bipolyar konstruksiyalar. Sorğu 10-15 dəqiqə ərzində aparılır. Nəticələr 9 kriteriya əsasında hazırlanır (təhsilə, dostlara, sağlamlığa, əməyə və s.

IV Blok. Psixi inkişaf

4.1. Təhsil aktivliyi metodikası. Uşaqlara 15-20 dəqiqə ərzində cavablandırmaq şərti ilə 70 sualla sorğu verilir. Nəticələr 9 kriteriya əsasında hazırlanır (Məsələn, öyrənmədə özünüqiymətləndirmə, reproduktiv dinamika səviyyəsi, təhsil fəaliyyətində dəyişikliklərin dinamikası, nəticə komponentləri, uğursuzluqdan sonra hərəkətetmə bacarığı, tədris motivasiyası və s.).

4.2. Dominant qəbul sistemi metodu. Uşaqlara 10 dəqiqə ərzində cavablandırmaq şərti ilə 48 sual verilir. Nəticələr 3 kriteriya əsasında hazırlanır (görmək, hiss etmək, eşitmək).

V Blok. Fiziki inkişaf

5.1. Şagirdlərin fiziki inkişafının vəziyyəti. Müəllif S.A.Rudenko.

Şagirdin fiziki inkişaf göstəriciləri sistemə tibb işçiləri tərəfindən daxil edilir. Təhlilin nəticələri protokollaşdırılır. (Protokola şagirdin boy ölçüsü, arterial təzyiqi, sinə diametri, funksional dəyişikliklərin indeksi, çəki, sağlamlıq qrupu, harmonallıq, fiziki tərbiyə üzrə qrupu daxil edilir. Diaqnoz xəstəliklərin beynəlxalq klassifikasiyası ona əsasən müəyyənləşdirilir. Ümumilkdə 116 meyar, 8 metodika.

Şagirdin fərdi inkişaf tapşırıqlarını müəyyənləşdirmək

VI Blok. Sosial inkişaf

4.1. Uşaq-ailə qarşılıqlı münasibətləri metodikası. Metodikanın müəllifi Varq-Stolinindir. Valideynlərə 15 dəqiqədə 61 sual ünvanlanır. (məsələn, avtoritar hipersosiallaşma, sosial arzu, kiçik uğursuzluq, simbioz).

Şagirdin şəxsi inkişaf məsələlərinin qurulması

Təcrübə zamanı meydana çıxan problemlərin, qarşıya qoyulan vəzifələrin və təhsil müəssisələrinin təlim tapşırıqlarının məqsədəuyğunluğu və səmərəliliyini təhlil edərkən belə bir nəticəyə gəldik ki, əksər ümumtəhsil müəssisələrində şagirdlərin fərdi inkişafının təhlili nəticələri təhsil müəssisəsinin vəzifələrini müəyyən edərkən praktiki olaraq nəzərə alınmır. Bundan əlavə hər bir təhsil müəssisəsinin həmişə nəzərə alınmalı olan spesifik məqsədləri, ümumi təhsilin hədəflərindən irəli gələn vəzifələri və s. vardır ki, onlar da diqqətdə saxlanılmır. Təcrübə göstərir ki, bəzi müəllimlər, praktik psixoloqlar və məktəb rəhbərləri «tapşırıq» və «məsələ» terminləri arasındakı fərqi görmürlər. Ona görə də, bu terminlər arasındakı fərqi təxirəsalınmadan aydınlaşdırmağa çalışacağıq. Xatırladaq ki, «tapşırıq» fəaliyyətin obyektiv durumudur. Bütün təlim-tərbiyə müəssisələri, ümumiyyətlə bütün təhsil strukturları (ailə, məktəbəqədər təhsil müəssisləri, texniki peşə məktəbləri, məktəbdənkənar müəssisələr və s.) üçün uşaq və gənclərin tərbiyəvi tapşırıqlarının əsasları təhsil sisteminin konsepsiya, qanun, proqram və digər sənədlərində əks olunur.

«Tapşırıqlar»dan fərqli olaraq «məsələ» fəaliyyətin psixoloji və pedaqoji tənzimləyicisinin funksiyalarını yerinə yetirən obyektiv vəziyyətin psixoloji əks olunması kimi qəbul edilir.

Strateji olaraq başa düşüləndir ki, bunların həyata keçirilməsi zaman tələb edir. Məsələn, şagirdlərdə insanlıq və milli hissləri formalaşdırmaq. Belə tapşırıqları reallaşdırmaq üçün pedaqoji kollektiv uşaqlarla illərlə işləməlidir. Taktik tapşırıqlar konkret məqsədlərlə birləşdirilmiş strateji tapşırıqların bir həlqəsidir. Pedaqoji məsələlər da həmçinin strateji və taktiki cəhətlərə malikdirlər. Strateji pedaqoji məsələlər qarşıya tərbiyəalanların inkişafına, müəyyən pedaqoji idealın əldə olunmasına təsir göstərməyi hədəfləyir.

Taktiki pedaqoji məsələ tərbiyə edilənin (şagirdin) zəruri keyfiyyətlərini birbaşa olaraq formalaşdıran və xüsusi olaraq bu fəaliyyət məqsədi ilə təşkil edilən bir məsələdir.

Təlim-tərbiyə prosesində əhəmiyyətli rolu olan psixoloji-pedaqoji məsələlərə aşağıdakılar aid edilir:

• Tərbiyə məsələləri – tərbiyəçilər məşğul olur. Bunun hesabına da təlim-tərbiyə prosesin həyata keçirilməsinə (müstəqil fəaliyyət), özünükorreksiya etməsinə, özünüinkişafa nail olunur.

• Pedaqoji məsələlər – psixoloqlar və pedaqoqlar tərəfindən işlənir, uşaqların şəxsiyyətinin inkişafı prosesini nizamlayır.

• Şagirdin fərdi inkişafını təmin edən, pedaqoq və psixoloqlar tərəfindən həll edilən pedaqoji məsələlər.

Şagirdin fərdi inkişafının layihələrlə idarə olunması sistemində tapşırıq və məsələlər müəyyən olunmuş psixoloji-pedaqoji analizin nəticələrinə əsasən kompleks diaqnostika əsasında qurulur. Eyni zamanda, təhsil müəssisəsinin fəaliyyətinə aid olan pedaqoji-psixoloji məsələlər şagirdin fərdi inkişafı ilə sıx surətdə bağlıdır. Buna nail olmaq isə təhsil müəssisəsində təlim-tərbiyə prosesinin, fərdi inkişafın strateji və taktiki məsələlərlə həyata keçirilməsi sayəsində mümkündür. Bundan əlavə, fərdi inkişafın taktiki tapşırıqlarının icrası müəyyən bir sinif kollektivində və ümumilikdə təhsil müəssisəsində pedaqoji tapşırıqların həllini təmin edən mərhələlərlə həyata keçirilir.

Bəzi hallarda tədris müəssisəsinin tapşırıqlarının əksəriyyəti tədris ili ərzində həll olunur. Şagirdlərin fərdi inkişafının pedaqoji-psixoloji məsələləri isə semestr ərzində müəyyənləşdirilir və reallaşdırılır. Amma ola bilər ki, bunları tamamlamaq mümkün olmasın. Belə olan halda vaxtın uzadılması mümkündür.

Təhsil müəssisəsinin tapşırıqlarının qurulması əsas problemlərin təhlili əsasında aparılır. Hansı ki, bu təhlillərdən ötən illərdə də istifadə olunub və onlar şagirdin fərdi inkişafında müəyyən rola malikdir. Eksperimental tədqiqatların nəticələri göstərir ki, təhsil müəssisəsinin tapşırıqlarının qurulması və şagirdin fərdi inkişaf məsələlərinin düzgün həyata keçirilməsini səbəb-nəticə əlaqələrinin sistem-korrelyasiya analizindən istifadə etməklə lazımı səviyyədə həyata keçirmək mümkündür.

Problemlər içində ən çox ehtimal olunan psixoloji-pedaqoji axtarışdır ki, bu da tapşırıqların layihələndirilməsi sistemində psixoloji, pedaqoji təsir formasının ən optimal yollarını, tədris prosesinin iştirakçıları ilə inkişaf işinin təşkili və aparılmasının xüsusi effektiv metodlarını müəyyənləşdirməyə imkan verir. Əl rejimində isə hətta uzun müddətə belə şagirdlərin fərdi inkişafının səmərəli psixoloji-pedaqoji yol və metodlarını müəyyənləşdirmək mümkün deyil.

«Universal-onlayn» xidmətində tapşırıq və məsələlərin qurulması prosesi özündə elementləri birləşdirən layihələndirmə yolu ilə həyata keçirilir. Bu elementlər şagirdlərin fərdi inkişaf sferası əsasında kompleks psixoloji-metodiki-pedaqoji diaqnostikanın nəticələrinin təhlilinə əsasən hazırlanır.

Birinci element – «Düşüncə anlamlı» tapşırıq və məsələlərin qurulması

texnologiyasında konkret problemlərin, həmçinin potensial imkanların mahiyyətindən bəhs olunur. Eyni zamanda «Nə etməli?» və «Kimlə?» suallarına cavab verilir. İkinci, «psixoloji-pedaqoji» element şagirdlərin fərdi inkişafının və problemlərin səbəb-nəticə əlaqələrinin təhlili əsasında qurulur, psixoloji-pedaqoji təsirin daha səmərəli metodlarının tətbiqinə nail olmağa, onun aparılmasına, realizə olunmasına yol açır. O, bir qayda olaraq, əksər hallarda o aşkar edilmiş problemlərin səbəbləri hesabına qurulur və «Necə?» sualına cavab verir.

Üçüncü element – metodoloji yanaşma adlanır. Bu yanaşmaya əsasən şagirdin həm daxili, həm də xarici amillərin təsiri ilə fərdi inkişafına, onun potensial imkanları və problemlərinə korrelyasiya təhlili əsasında baxılır. Psixoloji-pedaqoji təsiri təmin etmək üçün konkret metodlar, vasitələr, nümunələr göstərilir. Bu element şagirdlərin, valideynlərin müəyyən edilmiş potensial imkanlarına görə yaradılır və «Necə?» sualına cavab verir.

